https://doi.org/10.59849/3006-1342.2024.1.65
UOT 94.479

*S.B.Orucov*
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: orucovsoltan2gmail.com*

# İŞĞALDAN AZAD OLMUŞ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA BƏRPA VƏ QURUCULUQ İŞLƏRİ

*Məqalədə II Qarabağ (Vətən) müharibəsində qazandığımız Qələbə, ölkəmizin iqtisadi gücünün və hərbi qüdrətinin əyani sübutu və tarixi ədalətin bərpa etməklə 30 ilə yaxın bir müddətdə işğal altında saxlanılan torpaqlarımızın azad edilməsi öz əksini tapır. Məqalədə eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 iyul 2021-ci il Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü öz əksini tapmaqla yanaşı, yeni yaradılmış Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında görüləcək işlər haqqında məlumat verilir.*

*Fərmanda qeyd edilir ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıtması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.*

*Açar sözlər:* Şərqi Zəngəzur, Qarabağ, bərpa və quruculuq, Zəfər, Vətən

## *Giriş*

Yeni bölgüyə əsasən 7 iyul 2021-ci tarixli fərman ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması həm də tarixi ədalətin bərpasıdır. Məhz Fərmanda dagöstərilir ki, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərin Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının Şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-cı ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşməsini zəruri etdi. Həmçinin sözügedən Fərmanda Qarabağa vahid yanaşma var, yəni dağlıq və aran Qarabağ bir götürülür. Qeyd olunur ki, Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaranması vacibdir.

Yeni reallıq iqtisadi rayonlaşdırmaya yeni yanaşmanı əsaslandırır. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü, xüsusən də Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına tövhə verəcəkdir.

Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən İkinci Qarabağ (Vətən) müharibəsində misilsiz zəfər qazandı. Təxminən 30 ilə yaxın bir müddət ərzində düşmən taptağı altında qalan torpaqlarımız Azərbaycan Ordusunun 2020-ci ilin sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. 44 gün ərzində həyata keçirilən sürətli döyüş əməliyyatları ilə Cəbrayıl şəhəri və rayonunun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartar qəsəbələri və 52 kənd, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kənd, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9

kəndi Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Mirovdağ istiqamətlərində bir neçə strateji yüksəklikləri, Zəngilanda isə bir neçə yüksəklik azad olunub.

Noyabrın 10-da 2020-ci ildə Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib [2].

Böyük zəfərdən sonra ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri 44 günlük Vətən müharibəsində azad olunan ərazilərə Böyük Qayıdışı təmin etməkdən ibarətdir.

Respublikamız müharibənin başa çatmasından az vaxt keçməsinə baxmayaraq, işğaldan azad olmuş ərazilərdə yəni Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında Böyük Qayıdış üçün bərpa və zəruri infrastrukturun yaradılmasına başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bilavasitə nəzarəti ilə işğaldan azad olmuş ərazilərdə Böyük Qayıdış üçün bütün zəruri tədbirlər görülür.

İşğaldan azad olmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək məqsədilə həyata keçiriləcək tədbirlərin dörd mərhələdə icrası nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məslələrin həlli, növbəti mərhələdə isə sosial xidmətlərin fəaliyyətinin təmin edilməsi, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələlərinin həlli planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərin bərpası üçün əsas prinsiplər var. Bu prinsiplərdən biri də məcburi köçkünlərin öz doğma ərazilərinə (böyük) qayıdışın və məskunlaşmanın təmin olunmasıdır [10, s. 432].

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və iqtisadi inkişafın təmin edilməsinin əsas məqsədlərindən biri də müharibədən əvvəl öz doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin dayanıqlı şəkildə öz əzəli yaşayış yerlərinə qayıtmasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 44 günlük Vətən müharibəsinin bitməsindən sonra 2020-ci il noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfər etdi. Bu səfər tariximizin möhtəşəm zəfərimizdən sonrakı dövrdə torpaqlarımıza qayıdış anı idi.

Prezident 30 ilə yaxın işğal altında qalmış və tamamilə yerlə yeksan olmuş kəndlərin, şəhərlərin bərpası, yenidən qurulması ilə bağlı planların icra olunacağını, torpaqlarımızda quruculuq işlərinə başlandığını da vurğuladı. Çox əhəmiyyətli olan bu səfər zamanı Prezident İlham Əliyev Füzuli, Cəbrayıl şəhərlərində, xalqımızın tarixində dərin iz buraxan Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırmaqla yanaşı, Qarabağın tacı olan Şuşa şəhərinə aparan Füzuli-Şuşa avtomobil yolunun və ya “Zəfər” yolunun da təməlini qoydu [5].

Qarabağın tacı olan Şuşa şəhəri eyni zamanda Prezident tərəfindən Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilib və Şuşa Bəyannaməsinin imzalanması ilə siyasi missiya da yerinə yetirilib [4, s. 5].

Dövlət başçısının təşəbbüsü ilə yenidənqurma işlərinin yeni innovativ texnologiyalara əsaslanaraq aparılması, istər Şərqi Zəngəzur, istərsə də Qarabağ iqtisadi rayonlarında müasir şəhərsalma işlərinin planlı surətdə həyata keçirilməsi, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqi həmin ərazilərin çox tezliklə nəinki Qarabağın, eləcə də bütün regionun ən müasir rayon və şəhərlərə çevrilməsinə şərait yaradır.

Hələ müharibənin getdiyi dövrdə Azərbaycan Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili” haqqında fərman imzaladı [7, s. 317]. Bu fərman həm də ərazilərimizin yenidən qurulması istiqamətində artıq ilkin inzibati addımların atılmasının göstəricisi idi.

Prezidentin ilk səfərinin Füzuliyə etməsi və orada hava limanının inşasının nəzərdə tutması Qarabağın nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsi fikrindən irəli gəlirdi. 2021-ci ilin əvvəlində Füzulidə hava limanının inşası ilə bağlı Azərbaycan Prezidentinin qərarından cəmi 8 ay sonra işlər artıq yekunlaşmışdı.

Prezident İlham Əliyev 14 yanvar 2021-ci il tarixli Füzuli və Şuşa şəhərlərində səfəri zamanı demişdir: "Böyük Qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq- cəmi 44 gün ərzində - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətə bəapa edəcəyik".

Onu da qeyd edək ki, hər iki- yəni Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında 11 istiqamətdə avtomobil yolu çəkilir, 3 hava limanı, 3 dəmiryolu tikilir və kommunikasiya stansiyaları qurulur. Ən mühüm işlərdən biri olan Füzuli rayonundan Şuşa şəhərinə gedən "Zəfər yolu" çəkilib və uzunluğu 101,5 km olmaqla hazırdır. Bundan başqa Əhmədbəyli – Füzuili-Şuşa, Füzuli-Ağdam, Bərdə-Ağdam, Tağanalı-Kəlbəcər-İstisu, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Ağbənd, Horadüz-Zəngilan-Ağbənd dəmiryolu çəkilir, elektrik enerjisi, su təchizatı sistemləri yenidən qurulur. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk "ağıllı kənd", "Dost aqropark" layihələri icra edilir.

2021-ci il ərzində qısa vaxtda infrastruktur layihələrinin bir qisminin icrası ən yüksək səviyyədə başa çatdı. Şuşaya çəkilən "Zəfər yolu", Füzuli Beynəlxalq Hava Limanı istismara verildi. Bütün bu və digər layihələrin tez bir zamanda başa çatması Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsi idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2021-ci il dekabrın 24-də Hadrut və Şuşaya səfər etdi. Bu Prezident İlham Əliyevin 2021-ci il ərzində işğaldan azad olunmuş torpaqlarımıza sayca 17-ci səfəri idi. Həmin səfərlər zamanı dövlət başçısı bir sıra səhər və rayonun baş planlarını ictimaiyyət nümayəndələrinin iştirakı ilə müzakirə edib, təməlqoyma və açılış mərasimlərində iştirak edib, bərpa işlərinə dair tapşırıq və göstərişlərini verib.

Ümumilikdə 2021-ci il üçün 2 mlyard 200 milyon manat vəsait ayrılmış, bu vəsaitdən ilin yekununda 2 mlyard 178,4 milyon, yəni ayrılan vəsaitin 99%-i xərclənmişdir [1].

2022-ci il fevralın 13-də Ağdam rayonuna səfəri çərçivəsində Prezident vurğuladı ki, işğaldan azad edilmiş rayonlarımızın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılıb və qısa müddət ərzində bu konkret nəticələrə gətirib çıxaracaq. Xatırladaq ki, ilk Baş planı təsdiq edilən rayon Ağdamdır. Ağdamda yaradılmış Sənaye Parkına 110 milyon manatlıq Sərmayə qoyulmuşdur. Prezident İlham Əliyevin ən yeni inkişaf konsepsiyasında yenidən qurulan şəhər və rayonlarda reallaşdırılan ən müasir layihələr onu deməyə əsas verir ki, tezliklə dünya Böyük Qayıdışa və Azərbaycanın iqtisadi qüdrətinə şahidlik edəcəkdir.

Əsası 2021-ci ildə qoyulan Bərdə-Ağdam avtomobil yolunun inşaası hal-hazırda davam etdirilir. Ağdam-Füzuli avtomobil yolunda da işlər öz axarında gedir. 2022-ci ilin planına uyğun olaraq çətin reylefin olmasına baxmayaraq Laçın və Kəlbəcər avtomobil yollarında da işlər plan üzrə aparılır.

2022-ci ildə Prezident İlham Əliyev işğaldan azad olunan Ağdama 3-cü səfəri çərçivəsində "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kv-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, Qarabağ Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib. Beləliklə, azad edilmiş torpaqlarda inşa edilən yarımstansiyaların sayı 9-a çatıb. Eyni zamanda Prezident Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək 2 müəssisənin, Ağdam Rayon Mərkəzi Xəstəxanasının "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməllərini qoyub [8, s. 365].

2022-ci ildə Ağdam rayonuna səfəri zamanı Prezident və birinci xanımı Mehriban Əliyeva Heydər Əliyev fondu tərəfindən maliyələşən Ağdam Cümə məscidində görülən işlərlə tanış olmuşlar. Eyni zamanda Ağdamın yol-nəqliyyat infrastrukturunda görülən işlərə baş çəkiblər. 2021-ci ildən başlanmış Bərdə-Ağdam avtomobil yolu tamamilə yenidən qurulur və dəmir yolu inşa edilir.

Füzuli-Ağdam avtomobil yolunun çəkilişinə start verilib. Bu yol həm Füzuli və Ağdam şəhərini, həm də Ağdam Beynəlxalq Hava Limanı ilə birləşəcək və Ağdama başa ölkələrdən gəlmək daha asan olacaq.

Görülən işlərin davamı olaraq hazırda işğaldan azad olunan Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yeni yol-nəqliyyat infrastrukturu yaradılır. Zəngilan-Horadiz avtomobil yolu yeni yaradılan infrastrukturun təməli hesab olunur. Yolun ümumi uzunluğu 124 km və 6 zolaqlı oloacaq. Strateji əhəmiyyətli bu yol Azərbaycanın əsas hissəsini Zəngəzur dəhlizi vasitəsi ilə Naxçıvan MR-lə Şərqi və Qərbi Zəngəzuru isə dəmir və avtomobil yolu vasitəsilə birləşdirəcək.

İşğaldan azad edilmiş ərazilərdə loqistika və ticarət fəaliyyətinin həyata keçirilməsi, xidmətlərin göstərilməsini, sənaye istehsalının dəstəklənməsi və əhalinin dayanıqlı məşğuliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Republikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli 1453 nömrəli Fərmanına əsasən Şərqi Zəngəzur iqtisadi rayonunun Cəbrayıl ərazisində Araz Vadisi iqtisadi zonası və sənaye parkı yaradılmışdır [9].

Həm Qarabağ iqtisadi rayonunda, həm də Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan sənaye parkları işğaldan azad olmuş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə aparılmasına təkan verir.

Sənaye parkları yaşayış məntəqələrinin bərpasında "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının həyata keçirilməsində böyük rol oynayır. Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi başa çatıb.

Ağalıya 86 ailə köç edib, 360 şagird yerlik məktəb, 60 yerlik uşaq bağçası da tikilib. Burada poçt, "Asan" xidmət və DOST, kiçik və orta biznesin inkişafı mərkəzi təsis edilib. Kənddə tikiş fabriki, tibb məntəqəsi, aptek, mağaza, kafe, mobil operator xidmətləri fəaliyyət göstərir. Bu layihənin əsas ideyası yaşayış məntəqəsinin bütün xidmət və obyektlərin vahid komputerləşdirilmiş sistemdə birləşdirib idarə etməkdən ibarətdir.

Bütün 2022-ci il üçün işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması üçün 6,5 milyard manat vəsait ayrılmış və xərclənmişdir.

2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tələblərindən irəli gələn vəzifələri yerinə yetirmək üçün 2023-cü ildə Dövlət Proqramının icrası üzrə konkret hədəflər və tələblər qoyulub. Mərkəzi Şəhərsalma məsələləri üzrə işçi qrupunun iclasında Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlərdən və nəzərdə tutulan layihələrdən danışılıb. Bildirilib ki, Tərtər rayonunun Talış kəndində tikinti işlərinin birinci mərhələsi yekunlaşmaq üzrədir, fevralın sonunadək bu iş başa çatdırılacaq və həmin ərazi 20 ailənin köçürülməsinə hazır olacaq.

Onu da xatırladım ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycan hökuməti işğaldan azad olmuş ərazilərin yenidən qurulmasına və bərpasına 3 milyard 741 milyon vəsait yönəldib [3].

Əvvəlki illərlə müqayisədə 2023-cü ili məskunlaşma ili kimi də qeyd etmək olar. İşğaldan azad olunmuş ərazilərdə qızğın işlər gedir, bir tərəfdə təməl qoyma, bir tərəfdə yeni tikilən obyektlərin açılış və təqdimatı, digər tərəfdə isə böyük qayıdış yəni məskunlaşma gedir.

Əvvəlki ildə qeyd etdiyim kimi ilk məskunlaşmış kənd Zəngilanın Ağal kəndi olub və 86 ailə doğma torpaqlarına qayıdıb. Tərtər rayonunun Talış kəndi isə Ağalıdan sonra ikinci kənddir ki, 20 ailə öz dədə-baba torpaqlarına qayıdıb. İkinci mərhələdə isə 158 ailənin köçürülməsi nəzərdə tutulub.

Laçın şəhəri Azərbaycanın nəzarətinə qayıdan sonuncu ərazi olmasına baxmayaraq, artıq şəhərin doğma sakinləri öz evlərinə qayıdıblar. Azərbaycan ordusunun nəzarətinə keçməsindən cəmi 9 ay sonra, 2013-cü ilin may ayında Prezident İlham Əliyev Laçın şəhərinə

qayıdan əhali ilə görüşüb və evlərin açarlarını onlara təqdim edib. Cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub. Bu müddətdə şəhərdə 620 fərdi yaşayış evi, 9 çoxmərtəbəli bina bərpa edilib və təzə mənzillərə 764 ailə köçürülüb. 2023-cü ilin iyun ayına qədər Laçın şəhərinə 55 ailə yəni 213 nəfərin daimi məskunlaşması təmin edilmiş 2023-cü ilin avqust ayında isə Laçının Zabux kəndinə 88 nəfərdən ibarət 20 ailə köçürülüb.

Ümumilikdə isə birinci mərhələdə Laçında 4 minə qədər ailə yaşayacaq. Hazırda Şuşa, Ağdam, Fuzili, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər şəhərlərində, Şuşa rayonunun Daşaltı kəndində, Xocavəndin Hadrut qəsəbəsi və Tuğ kəndində bərpa və quruculuq işləri gedir.

İşğaldan azad olunmuş ərazilərdə strateji əhəmiyyətə malik olan beynəlxalq hava limanlarının inşası həmin ərazilərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişlənməsi, həm də xarici turistlərin ölkəmizə axın etməsi baxımından vacibdir.

Bir daha onu xatırladım ki, 14 yanvar 2021-ci ildə Qarabağ iqtisadi rayonu ərazisində təməli qoyulmuş Füzuli Beynəlxalq Hava Limanı cəmi 9 aya inşa edilib və 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğanın iştirakı ilə açılışı olub.

2021-ci ilin may ayında Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində təməli qoyulan Zəngilan Beynəlxalq Hava Limanının tikintisi 2022-ci ilin oktyabr ayında başa çatdırılıb və istifadəyə verilib. Azad edilmiş ərazilərdə növbəti hava limanı Laçın rayonu ərazisində yəni Şərqi Zəngəzur iqtisadi rayonunda inşa olunacaq. 2021-ci ilin avqust ayında təməli qoyulan hava limanı Laçın şəhərindən 30, Şuşadan 70, Kəlbəcərdən 60 km-lik məsafədə yerləşir.

## *Nəticə*

Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğal olunan torpaqların azad edilməsi ilə nəticələnən Vətən müharibəsi regionda tamamilə yeni reallıqlar yaradaraq respublikamızın həm Cənubi Qafqazda, həm də qlobal miqyasda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi. İlham Əliyevin Ali Baş Komandanlığı ilə hərbi meydanda qazanılan qələbə son onilliklərdə sürətli yüksəliş dövrünü yaşayan Azərbaycanı Beynəlxalq aləmdə də qalib dövlət kimi tanıtdı. Bu qələbə son iki əsrlik tariximizin zirvə nöqtəsi oldu [6, s. 557].

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə reallaşan layihələr onu göstərir ki, Prezident İlham Əliyev azad edilmiş torpaqlarımızda misli görünməmiş tikinti quruculuq işləri həyata keçirir.

Bütün görülən işlərə rəğmən deyə bilərik ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə səfəri və səfərlər zamanı ən qısa zamanda görülən işlər, bütün proseslərə birbaşa nəzarəti, eyni zamanda siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərinə çevriləcək. Bu ərazilər yeni siması və möhtəşəmliyi ilə dünyanın ən füsunkar guşələrindən birinə çevriləcək.

## ƏDƏBİYYAT

1. 2021-ci azad olunmuş ərazilərin bərpasına xərcləmiş vəsait açıqlanıb. https://marja.az/87926/2021-ci-ilde-azad-olunmus-erazilerin-berpasina-xerclenmis-vesait-aciqlanib
2. Azad olunmuş ərazilər. https://azerbaijan.az/related-information/308
3. Azərbaycan 9 ayda Qarabağa 4 milyard manata yaxın vəsait yönəldib. https://report.az/maliyye-xeberleri/azerbaycan-9-ayda-qarabaga-4-milyard-manata-yaxin-vesait-yoneldib/
4. Böyük Qayıdış, I kitab Bakı, “Şərq-Qərb”, 2021-ci il, 332 s.

5. Füzuli-Şuşa avtomobil yolu. https://az.wikipedia. org/wiki/F%C3% BCzuli%E2%80%93% C5%9Eu%C5%9Fa_avtomobil_yolu
6. Qarabağ iqtisadiyyatı 100 ildə. V cild. Bakı, 2022. 856 s.
7. Nazim Məmmədov, İkinci Qarabağ müharibəsi: Zəfər səlnaməsi. Bakı "OPTİMİST" MMC çap mərkəzi- 2022, 317 s.
8. Nazim Məmmədov, İkinci Qarabağ müharibəsi: Zəfər səlnaməsi. Bakı "OPTİMİST" MMC çap mərkəzi- 2022, 464 s.
9. Sənaye parkları. https://economy.gov.az/az/page/senaye-zonalari/senaye-parklari
10. Vətən müharivəsi tarixi, Şəxsiyyət faktoru. (27 sentyabr-10 noyabr 2020-ci il) Bakı, "Şərq-Qərb", 2021-ci il, 444 s.

УДК 94.479

*С.Б.Оруджев*
*Институт Истории НАНА имени А.А.Бакиханова*

## РЕСТАВРАЦИОННО-СТРОИТЕЛЬНЫЕ РАБОТЫ В ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ КАРАБАХА И ВОСТОЧНОГО ЗАНГАЗУРА, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Восточный Зангезур, Карабах, восстановление и строительство, победа, родина

В статье отражена победа, одержанная азербайджанским народом во Второй Карабахской (Отечественной) войне, которая является наглядным доказательством экономической и военной мощи нашей страны, а также освобождения наших земель, которые были оккупированы почти 30 лет. Была восстановленна историческая справедливость. В то же время в статье представлена информация о работе, которую предстоит провести во вновь созданных Восточно-Зангезурском и Карабахском экономических районах, а также о новом разделении экономических районов, отраженном в Указе Президента Азербайджанской Республики Ильхама Алиева (7 июля 2021год).

В указе отмечается, что в настоящее время принимаются масштабные меры в направлении восстановления освобожденных от оккупации территорий, обеспечения их дальнейшего развития, создания необходимой инфраструктуры и возвращения населения на родные земли.

UDC 94.479

*S.B.Orujov*
*ANAS Institute of History named after A.A.Bakikhanov*

# RESTORATION AND CONSTRUCTION WORKS IN THE ECONOMIC REGIONS OF KARABAGH AND EASTERN ZANGAZUR FREED FROM OCCUPATION

*SUMMARY*

*Key words:* Eastern Zangezur, Karabakh, restoration and construction, victory, homeland

The article reflects the Victory of the azerbaijani people won in the Second Karabakh (Homeland) War , a visual proof of our country's economic strength and military power, and the liberation of our lands that were occupied for nearly 30 years by restoring historical justice. At the same time, the article provides information about the work to be done in the newly created Eastern Zangezur and Karabakh economic regions, along with the new division of economic regions reflected by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev on July 7 2021.

It is noted in the decree that large-scale measures are currently being taken in the direction of the restoration of the territories freed from occupation, ensuring their future development, creating the necessary infrastructure and returning the population to their native lands.

***Daxil oldu: 15.02.2024-cü il***